# Azərbaycan və Gürcüstan parlamentlərinin Mədəniyyət komitələri arasında əməkdaşlıq haqqında memorandum imzalanıb

**Sentyabrın 23-də Milli Məclisin Mədəniyyət komitəsinin üzvləri Gürcüstan parlamentinin Mədəniyyət komitəsinin sədri Eliso Bolkvadzenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüblər.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Mədəniyyət komitəsinin üzvü, Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Arzu Nağıyev iki ölkə arasındakı tarixin dərinliklərindən gələn dostluq, qardaşlıq və mehriban qonşuluq münasibətlərindən söz açıb, Azərbaycanın Gürcüstanla əməkdaşlığa böyük önəm verdiyini qeyd edib. O, iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olmasından bəhs edərək bu kontekstdə parlamentlərarası əlaqələrin əhəmiyyətindən danışıb.

Azərbaycanı və Gürcüstanı ortaq dəyərlərlə yanaşı, eyni coğrafiyanın və ümumi maraqların da birləşdirdiyini deyən Arzu Nağıyev regional sülhün və əməkdaşlığın inkişafı istiqamətində səylərin birləşdirilməsinin əhəmiyyətini vurğulayıb. O, Azərbaycan və Gürcüstan parlamentlərinin Mədəniyyət komitələri arasında bu gün imzalanacaq əməkdaşlıq haqqında memorandumun əlaqələrimizin daha da inkişafına öz töhfəsini verəcəyinə inamını bildirib.

Gürcüstan parlamentinin Mədəniyyət komitəsinin sədri Eliso Bolkvadze Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edərək ölkələrimiz arasındakı dostluq və strateji tərəfdaşlıq münasibətlərindən danışıb. O, Cənubi Qafqazda sülh və əməkdaşlıq üçün yaranan imkanları bütün platformalarda, o cümlədən mədəniyyət platformalarında dəstəkləməyə hazır olduqlarını bildirib.

Görüşün sonunda Milli Məclisin Mədəniyyət komitəsinin üzvü, Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Arzu Nağıyev və Gürcüstan parlamentinin Mədəniyyət komitəsinin sədri Eliso Bolkvadze "Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət komitəsi ilə Gürcüstan parlamentinin Mədəniyyət komitəsi arasında əməkdaşlıq haqqında Memorandum"u imzalayıblar.

***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 24 sentyabr.- S.3.